# İRY layihə sahələrinə KİV nümayəndələrinin səfəri

Yaponiyanın İnkişafa Rəsmi yardım Proqramı çərçivəsində həyata keçirilmiş layihə sahələrinə KİV (kütləvi informasiya vasitələrinin) nümayəndələrinin səfəri 2013-cü il martın 7-də və 13-də təşkil olunmuşdur. Martın7-də 13 informasiya agentliyindən 19 jurnalist və operator, martın 13-də isə 11 agentlikdən 16 jurnalist və operator iştirak etmişdir. Yaponiyanın Azərbaycan Respublikasındakı Fövqəladə və Səlahiyyətli Səfiri cənab Şusuke Vatanabe jurnalistləri səfər zamanı müşayiət etmişdir. Layihələrə baxışdan sonra jurnalistlərə Səfirin iqamətgahında ziyafət verilmişdir. Ziyafət zamanı KİV nümayəndələri səfirliyin və Yapon şirkətlərinin əməkdaşları ilə İRY (İnkişafa Rəsmi Yardım Proqramı) haqqında fikir mübadiləsi aparmışlar.
Bütün informasiya agentlikləri Yaponiyanın İnkişafa Rəsmi Yardımı haqqında məlumatları dərc etmiş və televiziya vasitəsilə nümayiş etdirmişlər və bununla da sözügedən yardım proqramı çərçivəsində həyata keçirilən layihələrlə haqqında əhalini məlumatlandırmışlar.

Layihə sahələri:

**7 mart**

1. Şimal Qaz Buxar Elektrik Stansiyası 1 (fəaliyyətdədir) və Şimal Qaz Buxar Elektrik Stansiyası (inşa edilir) ~
   Güzəştli kredit layihəsi
2. Ceyranbatanda 2 saylı orta məktəbin tikintisi ~ Kiçik həcmli və İnsan Təhlükəsizliyi üzrə Qrant Yadımı Proqramı

**13 mart**

1. Kiçik şəhərlərin kanalizasiya və su təchizatının yaxşılaşdırılması ~ Güzəştli kredit layihəsi
2. Xaçmazın Niyazobad kəndində tibb məntəqəsinin tikintisi~ Kiçik həcmli və İnsan Təhlükəsizliyi üzrə Qrant Yadımı Proqramı
3. Aztəminatlı fermerlərə yardım və ərzaq təhlükəsizliyi

Şimal Qaz Buxar Elektrik Stansiyası (Güzəştli kredit layihəsi)





Ceyranbatanda 2 saylı orta məktəb (Kiçik həcmli layihələr)






Kiçik şəhərlərdə kanalizasiya və su təchizatı sisteminin təkmilləşdirilməsi (güzəştli kredit)



Xaçmazın Niyazobad  kəndində tibb məntəqəsi (Kiçik həcmli layihələr)



Aztəminatlı fermerlərə yardım və  ərzaq təhlükəsizliyi ( Qrant yardımı)



KİV nümayəndələrinin fikir mübadiləsi



Jurnalistlər Yaponiya Hökumətinin Azərbaycanda həyata keçirdiyi İnkişafa Yardım Proqramına görə öz minnətdarlıqlarını bildirdilər. Aşağıda a sözügedən proqram haqqında KİV nümayəndələrinin təəssüratlarını ifadə edən şərhləri qeyd olunmuşdur:

“Mən təkcə Yapon Hökumətinin dəstəyi ilə həyata keçirilən layihələrlə deyil, eyni zamanda Yapon xalqının mentaliteti ilə də tanış olmaq imkanı əldə etdim, Onlar etdikləri hər işdə, insanlarla münasibətdə kamil olamq istəyirlərç ən əsası isə necə təşəkkür etməyi çox gözəl bacarırlar.

.... **Rauf Nəsirov,**
**“Bakinskiy Raboçiy” qəzeti**

KİV nümayəndələri suşi və sakedən dadırlar



“Səfərimiz çox gözəl və maraqlı keçdi. Mənim xüsusilə  Xaçmazda həyata keçirilən “Kiçik səhərlərdə kanalizasiya və su təchizatı layihəsi çox xoşuma gəldi. Bu layihə həmin rayonda yaşayan insanların su problemini  yüksək səviyyədə həll edəcəkdir.

**.... Aynur Əliyeva,**
**ANS Press İnformasiya Agentliyi**

“Biz Yaponların necə mehriban və isti xalq olmasının şahidi olduq. KİV üçün təşkil olunmuş layihə sahələrinə səfər bizə bu 20 il ərzində Yaponiya Hökumətinin ölkəmizdə həyata keçirdiyi yardım fəlayyəti haqqında ətraflı məlumatlandırdı.

**... Aytən İmanova,**
**Lider TV**